**A. Məqsəd və ümumi öhdəliklər** (1-4-cü bəndlər)

*1. Aşağıdakılar barədə məlumat verməyiniz xahiş olunur:*

(a) 2016-cı ilin sentyabrında qəbul edilmiş Konstitusiyaya dəyişikliklərin və 2018-ci ilin 31 may tarixində qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında Qanunu"nun BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyasına uyğunluğunun təmin edilməsi, qanunvericilikdə və aparılan siyasətlərdə əlilliyi olan şəxslərə münasibətdə alçaldıcı sözlərin ləğv edilməsinə yönəlmiş tədbirlər;

(b) Əlilliyin qiymətləndirilməsi və qiymətləndirmə meyarlarının müəyyən edilməsində əlilliyi olan şəxslərin təşkilatlarının cəlb olunub-olunmaması, fərqli qiymətləndirmə metodların mövcud olub-olmaması və əlilliyin qiymətləndirilməsinin mütəmadi nəzərdən keçirilib-keçirilməməsi;

(c) Qanunvericilikdə və aparılan siyasətlərdə əlillik zəminində ayrı-seçkiliyə qarşı görülən tədbirlər və əlilliyi olan şəxslərə münasibətdə istifadə edilən alçaldıcı ifadələr ehtiva edən hüquqi anlayışların dəyişdirilməsi və ya ləğv edilməsi;

(d) 2014-cü ilin yanvar ayından etibarən Konvensiya üzrə öhdəliklərin icrası və icrası üzrə monitorinqi prosesində təmsil olunan təşkilatlar vasitəsilə əlilliyi olan şəxslərin cəlb olunması və iştirakı;

(e) Əlilliyi olan qadınların təşkilatları, əlilliyi olan uşaqların təşkilatları və əqli əlilliyi olan şəxslərin təşkilatları daxil olmaqla əlilliyi olan şəxslərin təşkilatların ictimai qərar qəbul etmə prosesində iştirakı üçün vəsait və məlumatla təmin edilmə;

(f) Azərbaycan işarət dilinin (jestika) dövlət tərəfindən rəsmi istifadə olunan dil kimi qəbul edilməsi istiqamətində görülən tədbirlər.

**B. Xüsusi hüquqlar (maddə 5-30)**

***Bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi*** *(maddə 5)*

*2. Xahiş edirik aşağıdakılar barədə məlumat verməyiniz xahiş olunur:*

a) Ümumilikdə əlillik zəminində ayrı-seçkiliyin, o cümlədən əlilliyi olan qadın və qızların üzləşdiyi ayrı-seçkiliyin bir çox formalarına qarşı qanunvericilik və siyasət tədbirlərin hazırlamaqda əldə olunmuş nailiyyətlər;

b) etnik və dini azlıqlara mənsub olan əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üçün bu günə qədər həyata keçirilmiş tədbirlər, eləcə də onların cəmiyyətdə tam şəkildə iştirakını təmin etmək üçün həyata keçirilən təşəbbüslər;

***Əlilliyi olan qadınlar*** *(maddə 6)*

*3. Xahiş edirik aşağıdakılar barədə məlumat verməyiniz xahiş olunur:*

a) gender və əlillik perspektivlərinin qanunvericilik və aparılan siyasətlərdə, həyatın bütün sahələrində, o cümlədən Konvensiyanın əhatə etdiyi bütün sahələrdə nəzərə alınması,

əlilliyi olan qadınlar və qızlara xas olan risklərin və kənarlaşdırma amillərinin effektiv aradan qaldırılması ilə bağlı görülmüş tədbirlər;

(b) Əlilliyi olan qadınlara və qızlara qarşı çoxsaylı və kəsişən ayrı-seçkiliyin, o cümlədən məişət və cinsi zorakılığın qarşısının alınmasına yönəlik qanunvericilik və siyasət tədbirləri, bu tipli ayrı-seçkiliyin tamamilə aradan qaldırılmasına yönəlmiş tədbirlər, bu cür hallarla üzləşən əlilliyi olan qadınların və qızların ədalətə effektiv çıxışlarının və hüquqlarının qorunması ilə bağlı tədbirlər;

(c) Əlilliyi olan qadınların və qızların cinsi və reproduktiv sağlamlıq hüquqlarının təmini üçün görülən tədbirlər;

d) Əlilliyi olan qadınlara və qızlara qarşı cinsi zorakılıq hallarının sayı, ittiham və məhkumluqların sayı; 2013-ci ildən etibarən (illərə bölərək göstərməklə) yaş bölgüsü, qanun pozuntusunun, cinayətin və cəzanın növü göstərilməklə.

***Əlilliyi olan uşaqlar*** (7-ci maddə)

*4. Xahiş edirik aşağıdakılar barədə məlumat verməyiniz xahiş olunur:*

(a) Əlilliyi olan uşaqların qeydiyyata alınmasında və müəssisələrdə (internat və digərləri) yaşayan əlilliyi olan uşaqlarla bağlı etibarlı məlumatların (cins və əlilliyin növü üzrə) toplanması istiqamətində əldə edilən nailiyyətlər;

b) Əlilliyi olan uşaqların müəssisələrə düşməsinin qarşısının alınması, əlilliyi olan uşaqlar və onların ailələri üçün inklüziv və icma əsaslı xidmətlərin təqdim edilməsi;

(e) Zorakılığa məruz qalan əlilliyi olan uşaqlara, xüsusilə də cinsi istismar qurbanı olmaq təhlükəsində olan əqli əlilliyi olan qızlara və psixososial əlilliyi olan uşaqlara dəstək tədbirləri və onlarla işləyən əməkdaşlara 2014-cü ilin yanvar ayından etibarən keçirilmiş təlimlər.

***Məlumatlılığın artırılması*** (maddə 8)

5. *Xahiş edirik daha ətraflı məlumat verməyiniz xahiş olunur*:

a) Əlilliyi olan şəxslərin hüquqlarına dair, o cümlədən əlilliklə bağlı insan hüquqları yanaşması, ağlabatan uyğunlaşdırma, əlillik zəminində ayrı-seçkilik barədə ictimaiyyətə və özəl sektora ünvanlanmış maarifləndirmə kampaniyalarının həyata keçirilməsinə yönəlmiş addımlar, əlilliyi olan şəxslərin və onları təmsil edən təşkilatların bu kampaniyalarda iştirakının təmini istiqamətində tədbirlər;

b) Məlumatlılığın artırılmasına və bununla bağlı müvafiq büdcənin və müddətlərin əks olunduğu milli strategiyaların və fəaliyyət planlarının hazırlanması;

(c) Konvensiyanın 4, 3, 5, 6, 9, 12, 19, 24 və 33.3 maddələrinə dair BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinin ümumi şərhlərinin əlilliyi olan şəxslərin təşkilatlarının iştirakı ilə tətbiqi və əlçatan formatlarda yayılması məqsədilə həyata keçirilən tədbirlər.

***Müyəssərlik*** (maddə 9)

*6. Xahiş edirik aşağıdakılar barədə məlumat verməyiniz xahiş olunur:*

a) Dövlətin bütün regionlarında, xüsusilə də kənd yerlərində bina və qurğuların layihələndirilməsi, nəqliyyatın təkmilləşdirilməsi, eləcə də informasiya və kommunikasiya texnologiyaları sahəsi üzrə əlilliyi olan şəxslər üçün müyəssərliyin təmin edilməsi istiqamətində görülən tədbirlər;

b) Dövlət və özəl sektor üçün müyəssərlik və universal dizayn üzrə təlimlərin təşkili və əlilliyi olan şəxslərin təşkilatlarının bu təlimlərin hazırlanması və həyata keçirilməsinə cəlb edilməsi məqsədilə görülən tədbirlər.

***Həyat hüququ*** (10-cu maddə)

7. Xüsusi müəssisələrdə yerləşdirilmiş əlilliyi olan şəxslərin ölüm sayı və bununla əlaqədar aparılmış təhqiqatlar barədə, eləcə də əlilliyi olan şəxslərin, xüsusilə də əqli və psixososial əlilliyi olan şəxslərin həyatının qorunması ilə bağlı görülən tədbirlər barədə məlumat təqdim etməyiniz xahiş olunur. Eyni zamanda, psixiatrik və daimi yaşayış müəssisələrində standartlardan aşağı həyat şərtlərinə yönəlik görülmüş işlər barədə məlumat verməyiniz xahiş olunur.

***Riskli vəziyyətlər və fövqəladə humanitar hallar*** (11-ci maddə)

8. Riskli vəziyyətlərdə əlilliyi olan şəxslərin qorunması və təhlükəsizliyinin təmin edilməsi, riskli vəziyyətlərlə bağlı preventiv tədbirlər üzrə qanunvericilik və tədbirlər barədə məlumat verməyiniz xahiş olunur. Fəlakət halları zamanı yaranan risklərə dair strategiyaların və planların işlənib-hazırlanması və həyata keçirilməsi prosesində əlilliyi olan şəxsləri təmsil edən təşkilatların iştirakı barədə məlumat verməyiniz xahiş olunur.

***Qanun qarşısında bərabərlik*** (maddə 12)

9. Komitənin tövsiyələrinə (CRPD/C/AZE/CO/I, 27-ci bənd) uyğun olaraq əlilliyi olan şəxsin əvəzinə qərar qəbul etmə sisteminin mümkün olduğu qədər dəstəkləyici qərar vermə sistemi ilə əvəz edilməsinə dair Mülki Məcəlləyə dəyişikliklər olunması istiqamətində görülmüş işlərlə bağlı Komitəyə məlumat verməyiniz xahiş olunur.

***Ədliyyə sisteminin əlçatanlığı*** (13-cü maddə)

10. Psixoloji, əqli və psixososial, eləcə də eşitmə əlilliyi olan şəxslər üçün ədliyyə sisteminin müyəssərliyinin təmin edilməsi, o cümlədən məhkəmə və istintaq prosesləri zamanı prosessual uyğunlaşdırma və hüquqi yardımın göstərilməsi üzrə görülmüş tədbirlər barədə məlumat verməyiniz xahiş olunur. Eyni zamanda, Konvensiyanın icrası ilə əlaqədar məhkəmə sistemində hakimlərin və digər mütəxəssislərin hazırlanmasına dair tədbirlər haqqında məlumat verməyiniz xahiş olunur.

***Azadlıq və şəxsi toxunulmazlıq*** (maddə 14)

11. Əqli, psixososial və eşitmə əlilliyi olan şəxslərin əlillikləri və ya müəssisələrdə olmaları səbəbindən onların azadlıqdan məhrum edilməsi ilə bağlı müddəaların Cinayət Məcəlləsindən, Əhalinin sağlamlığın qorunması və Uşaq hüquqları haqqında

Qanunlardan çıxarılması ilə bağlı görülən tədbirlər barədə məlumat verməyiniz xahiş olunur.

12. Ölkənizin qoşulduğu bu Konvensiyanın bir çox müddəalarına, xüsusilə də 14-cü maddəsinə ziddiyyət təşkil etməsini nəzərə alaraq Avropa Şurasının İnsan Hüquqları və Ləyaqətinin Müdafiəsi Konvensiyasına Əlavə Protokol Layihəsinin (Biologiya və Tibbin tətbiqi: İnsan hüquqları və biotbb konvensiyası, ETS № 164) qəbul olunmaması üçün atılan addımlar barədə məlumat verməyiniz xahiş olunur.

***İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzadan azadolma*** (maddə 15)

13. Əlillik və ya səhhətləri zəminində həbs edilmiş və saxlanılan əlilliyi olan şəxslərin vəziyyəti, psixiatrik müəssisələrdə məcburi və aidiyyəti olmayan müalicələr, eləcə də müalicə müddətində kimyəvi sakitləşdiricilərdən və elektro-şok metodlarından istifadə edilməsi barədə məlumat verməyiniz xahiş olunur.

14. Qanunsuz həbslər üzrə İşçi Qrupunun 2016-cı ildə Azərbaycana olan missiyasına dair Hesabatda (A/HRC/36/37/Add.l) qeyd edilmiş müəssisələrdə qəddar və qeyri-insani şəraitin aradan qaldırılması üçün görülən tədbirlər barədə məlumat verməyiniz xahiş olunur. Son 5 il ərzində əlilliyi olan insanlar tərəfindən pis rəftarla bağlı verilən şikayətlərin sayı və bununla əlaqədar görülmüş işlərə dair xüsusi məlumat verməyiniz xahiş olunur.

***İstismar, zorakılıq və təhqirdən azadlıq*** (16-ci maddə)

15. Əlilliyi olan şəxslərə qarşı zorakılıqların qarşısının alınması, bu kimi hallarda onların qoruması və təzminatın əldə edilməsi daxil olmaqla, pozulmuş hüququn bərpa edilməsi məqsədilə qanunvericilik və praktik tədbirlər barədə məlumat verməyiniz xahiş olunur.

16. Zorakılıq və təhqirə məruz qalmış əlilliyi olan şəxslərin sayı və faiz göstəricisi, son beş ildə başlayan və başa çatan cinayət işlərinin və şikayətlərin sayı və habelə müstəqil insan hüquqlarına əsaslanan qurumların və / və ya mexanizmlərin iştirakı ilə daimi qalma yerlərində insan hüquqlarının müdafiəsi ilə bağlı görülmüş tədbirlər barədə məlumat verməyiniz xahiş olunur.

***Şəxsi toxunulmazlığın qorunması*** (17-ci maddə)

17. Əlilliyi olan şəxslərin şəxsi toxunulmazlığının qorunması üçün tətbiq olunan mexanizmlər barədə və xüsusilə də özlərini ifadə edə bilməyən şəxslərə münasibətdə bu istiqamətdə görülən tədbirləri barədə məlumat verməyiniz xahiş olunur.

***Müstəqil yaşamaq və cəmiyyətin həyatında iştirak***(19-cu maddə)

18. Əlilliyi olan şəxslərin müstəqil yaşaması və cəmiyyətin həyatında iştirakı üçün 2014-cü ildən etibarən fərdi yardım da daxil olmaqla, tətbiq edilən dəstək tədbirləri barədə məlumat verməyiniz xahiş olunur. Müəssisələrdə yaşayan şəxslər haqqında cinsiyyətə, yaşa, etnik mənsubiyyətə və əlilliyin növünə görə ayırmaqla məlumat verməyiniz xahiş olunur. Həmi şəxslərin de-institutlaşması istiqamətində hazırlanan yol xəritəsi və indiyə

qədər edilən əldə edilmiş nailiyyətlər haqqında, eləcə də məqsədlə ayrılmış insan, texniki və maliyyə resursları haqqında məlumat verməyiniz xahiş olunur.

***Fərdi hərəkət etmə*** (20-ci maddə)

19. Əlilliyi olan şəxslərin münasib yardımçı vasitələrlə təmin edilməsi üçün görülmüş tədbirlər, ictimai nəqliyyatın müyəssərliyinin və əlilliyi olan şəxslərin fərdi hərəkət etməsi imkanlarının artırılması məqsədilə görülən tədbirlər barədə məlumat verməyiniz xahiş olunur.

***İfadə və fikir azadlığı, məlumatlara çıxış imkanları*** (21-ci maddə)

20. Görmə və eşitmə zəifliyi olan şəxslərin məlumatlara çıxış imkanlarını genişləndirmək üçün görülən tədbirlər barədə məlumat verməyiniz xahiş olunur. Dövlətin bütün ərazisində əlilliyi olan şəxslər üçün rabitə və informasiyanın asan oxunula bilən (Easy Read) və ya digər alternativ və böyüdülmüş versiyalarına çıxışın təmin edilməsi ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verməyiniz xahiş olunur.

21. Əlilliyi olan şəxslər üçün çap və elektron formatda məlumatlara çıxış imkanlarının asanlaşdırmağa yönəlik planlar, büdcələr və müddətlər daxil olmaqla sistemli tədbirlər barədə məlumat verməyinizi xahiş olunur.

***Evə və ailəyə hörmət*** (23-cü maddə)

22. Övladlığagötürmə prosesində əlillik zəminində qanunvericilikdə müəyyənləşdirilmiş ayrı-seçkiliyin aradan qaldırılması, əlilliyi olan şəxslərin, xüsusilə də əqli və psixososial əlilliyi olan şəxslərin evlənmək və övladlığa götürmək hüququnu məhdudlaşdıran Ailə Məcəlləsinin 120-ci maddəsinin və digər müddəalarının ləğv edilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verməyiniz xahiş olunur. Əlilliyi olan şəxslərin evlənmək, ailə, valideynlik və digər münasibətlər üzrə, o cümlədən övladlığagötürmə və digər bu kimi oxşar hüquqları və vəzifələri cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə reallaşdırması və daşıması üçün görülmüş tədbirlər barədə məlumat verməyiniz xahiş olunur.

***Təhsil*** (24-cü maddə)

23. "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi ilə bağlı əldə edilmiş nailiyyətlər və müşahidə olunan çatışmazlıqlar barədə məlumat verməyiniz xahiş olunur. Həmçinin, proqramın orta müddətli dövr üçün nəzərdən keçirilməsi, əlilliyi olan şəxslərə və onları təmsil edən təşkilatların bu prosesə cəlb edilməsi planlaşdırılırmı?

***Əmək və məşğulluq*** (27-ci maddə)

24. Əlilliyi olan şəxslərin açıq əmək bazarında rəqabət qabiliyyətinin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər, eləcə də əlilliyi olan qadınların və kişilərin əməyə və məşğulluğa çıxış imkanlarının yaxşılaşdırılmasına yönəlmiş təşəbbüslər və proqramlar haqqında məlumat verməyiniz xahiş olunur.

25. Əlilliyi olan şəxslərin öz biznesləri üçün kredit almaq istəyinə qarşı qoyulan universal maneələrin aradan qaldırılmasına yönəlmiş tədbirlər daxil olmaqla, əlilliyi olan şəxslərin işə götürülməsi üçün kvota sisteminin tətbiq edilməsi ilə bağlı hüquqi və ya başqa inzibati tədbirlər barədə məlumat verməyiniz xahiş olunur. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 213 saylı qərarına riayət etməyən dövlət və özəl müəssisələrə qarşı tətbiq edilmiş cərimə və sanksiyalar haqqında xüsusi məlumat verməyiniz xahiş olunur.

26. Əlilliyi olan şəxslər münasibətdə işəgötürənlər tərəfindən ağlabatan uyğunlaşdırma tələbinin effektiv sürətdə yerinə yetirilməsi istiqamətində əldə edilən nailiyyətlər haqqında məlumat verməyiniz xahiş olunur.

***Siyasi və ictimai həyatda iştirak*** (29-cu maddə)

27. Əlilliyi olan şəxslərin 2014-cü ildən etibarən siyasi və seçki proseslərində və ictimai fəaliyyətlərdə effektiv iştirakının təmin edilməsi istiqamətində əldə edilən nailiyyətlər və 2014-cü ildən etibarən neçə nəfər əlilliyi olan şəxsin dövlət/ictimai vəzifələrə təyin edilməsi və ya seçilməsi məlumat verməyinizi xahiş olunur.

28. Əlilliyi olan bütün şəxslər üçün seçki məntəqələrinin müyəssərliyinin təmin edilməsi üçün həyata keçirilmiş və ya nəzərdə tutulan tədbirləri qeyd etməyiniz xahiş olunur.

29. Xahiş edirik aydınlıq gətirin: əqli cəhətdən əlilliyi olan şəxslər seçkilərdə seçilmək və ictimai işlər üzrə mexanizmlərdə iştirak edə bilirmi, seçki və siyasi ictimai həyatda iştirak hüququ haqqında asan oxunula bilən (Easy Read) və digər alternativ üsullarla onlara təqdim edilmiş məlumatlar haqqında məlumat verə bilirmi?

***Mədəni həyat, istirahət, asudə vaxtı və idmanda iştirak*** (maddə 30)

30. Əlilliyi olan şəxslərin mədəni həyatda və idmanda tanınması və bərabər çıxış imkanlarının təmin olunması və bu işin dayanıqlığı, eləcə də istirahət və mədəniyyət sahəsində çalışanların əlilliyə uyğunlaşdırılmış xidmətlər təqdim etmələri üçün təlimatlandırılması istiqamətində görülmüş tədbirlərə dair məlumat verməyiniz xahiş edilir.

**C. Xüsusi öhdəliklər** (31-33-cü bəndlər)

***Statistika və məlumatların toplanması*** (31-ci maddə)

31. Konvensiyaya uyğun olaraq əlilliyi olan şəxslərə dair məlumatların sistemli şəkildə toplanması və təhlil edilməsi mexanizmlərini yaratmaq üçün planlar barədə məlumat verməyiniz xahiş olunur. Dövlətin 2019-cu ildə keçirəcəyi əhalinin siyahıya alınmasına əlilliklə bağlı olan sualların (Washington Group Core suallar) daxil edilməsi niyyətinin olub-olmaması barədə məlumat verməyiniz xahiş olunur. Əlilliyi olan şəxsləri təmsil edən təşkilatların əhalinin siyahıya alınması, sorğular və s. daxil olmaqla məlumat toplama prosesinə cəlb edilməsi və bu proseslər zamanı onlarla necə əməkdaşlıq edilməsi haqqında məlumat verməyiniz xahiş olunur.

***Beynəlxalq əməkdaşlıq*** (32-ci maddə)

32. Beynəlxalq əməkdaşlığa dair müqavilələrin hazırlanması və həyata keçirilməsi prosesinə əlilliyi olan şəxslərin və onları təmsil edən təşkilatların cəlb edilməsi

istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verməyiniz xahiş olunur. 2030-cu il İnkişaf Gündəliyi və Davamlı İnkişaf Hədəflərinin həyata keçirilməsi və monitorinqi prosesinə əlilliyi olan şəxsləri təmsil edən təşkilatların necə cəlb edilməsi barədə məlumat verməyiniz xahiş olunur.

***Milli icra və monitorinq*** (33-cü maddə)

*33. Xahiş edirik aşağıdakılar barədə məlumat verməyiniz xahiş olunur:*

(a) Dövlətin milli və regional səviyyədə bütün sahələrdə Konvensiyanın icrasının təmin olunması ilə bağlı koordinasiya mexanizmləri və / və ya əlaqələndirici mərkəzləri;

(b) Konvensiyanın icrasına nəzarət etmək istiqamətində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin mandatı və həyata keçirdiyi fəaliyyətlər;

(c) Milli İnsan Hüquqları İnstitutlarının Qlobal İttifaqının Akkreditasiya üzrə Alt Komitəsinin tövsiyələrini yerinə yetirilməsi və Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkilinin ofisinin fəaliyyətinin gücləndirilməsi və öz səlahiyyətlərinin Paris prinsiplərinə uyğun olaraq təşkil edilməsi.